Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Gənc nəslimiz müharibədə də, Qayıdışda da öncüldür...

**Azərbaycanda çox vətənpərvər gənclik yetişib. Çünki dövlət müstəqilliyimizin bərpa olunmasından keçən bu 32 il ərzində cəmiyyət, ailə, təhsil müəssisələri, dövlət olaraq uşaq və gənclərin mənəvi tərbiyəsinə xüsusi diqqət yetirmişik. Sözün həqiqi mənasında güclü bir nəsil yetişdirməyə nail olmuşuq.**



Bir çox ekspertlər hesab edirdi ki, torpaqları işğal olunmuş bir ölkənin uşaq və gəncliyində vətənpərvərlik yüksək səviyyədə ola bilməz, çünki məğlubiyyət sindromunu aşıb keçmək çətindir. Amma bu fikirdə olanlar yanıldılar, Azərbaycanda məğlubiyyət sindromunu daşıyan gənclik yox, mübariz, vətənpərvər, torpaqlarını işğaldan azad etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirən əzmkar bir gənclik meydana çıxdı. Qarabağı o gənclik işğaldan azad etdi. Bu unudulmayan, hər zaman vurğulanmalı olan bir gerçəklikdir, faktdır. Azərbaycan gəncliyi torpaqlarımızın yağı tapdağından azad edilməsi sahəsində ön cərgədə dayandı və düşmənə layiqli cavab verdi.

Bildiyimiz kimi, 2022-ci ildən başlayaraq "Böyük Qayıdış"a start verilib. "Böyük Qayıdış" 19 iyul 2022-ci il tarixində Zəngilan rayonundan başladı. Bu məqamı ona görə vurğuladıq ki, Vətən müharibəsində ön cərgədə olan gənc nəsil "Böyük Qayıdış" prosesinin də öncüllərindən oldu. Gənclər heç zaman görmədikləri yerlərə qanad açıb uçdular...

Məlum olduğu kimi, artıq azad və abad ərazilərə keçmiş məcburi köçkünlər qayıdır və gənc nəsil öz dədə-baba torpağına həvəslə gedir.

### "Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır"

Bildiyimiz kimi, Prezident İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Ölkə başçısı görüşdə gənc nəsillə bağlı çox mühüm fikirlər söyləyib. "Şadam ki, gənc nəsil də - füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu, doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməyiblər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq. İşğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq. Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda, siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz nə qədər doğma diyara bağlıyıq".

Ölkə başçısı həmçinin vurğuladı ki, gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə almalıdır: "Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur".

### Gənclərimiz ata-baba torpaqlarına qayıdırlar...

Bildirək ki, Respublika Gənclər Təşkilatının elan etdiyi könüllülük proqramı çərçivəsində gənclər "Böyük Qayıdış" prosesinə əhəmiyyətli dəstək verib və onlar Ağalıda və başqa məskunlaşdırılma aparılan yerlərdə könüllü kimi üzərlərinə düşən işləri həyata keçirirlər. Çox müsbət haldır ki, müharibədən sonrakı dövrdə işğaldan azad olunmuş torpaqların dirçəldilməsi prosesində gənclərin səfərbər edilməsi, şanlı zəfər tarixinin gənclər arasında təbliğ edilməsi, Vətən müharibəsi qəhrəmanlarının, şəhid və qazilərinin cəmiyyətdə tanıdılması, dövlət və cəmiyyət arasında körpü, işğalın fəsadlarının, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması, həmçinin Vətən müharibəsində iştirak edən gənclərin maraqlarının dəstəklənməsi prosesi gedir. Gənclər azad ərazilərə Qayıdışda fəal iştirak edir. Füzuliyə, Laçına, Zəngilana və başqa yerlərə qayıdışda gənclərin nümunə göstərməsi təqdirəlayiqdir.

### "Biz vətənə, torpağa bağlı gəncliyə sahibik"

Gənc alim Leyla Məmmədəliyeva bizimlə söhbətində bildirdi ki, yüksək vətənpərvərlik tərbiyəsi alan gənclərimiz bütün dünyaya Azərbaycan gəncliyinin mənəvi, fiziki gücünü, əzmini göstərə bildi.

L.Məmmədlieva qeyd etdi ki, 2020-ci ilin 27 sentyabrında düşmənin təxribatlarına cavab olaraq həyata keçirilən əks-hücum əməliyyatları zamanı minlərlə gəncin könüllü cəbhəyə getmək istəyinin şahidi olduq. "Azərbaycan gəncliyi ilə fəxr etməliyik. Çünki bu gənclik bütün dünyaya nümunə olan bir gənclikdir. Sözün düzü, biz çoxumuz belə düşünürdük ki, Azərbaycanda gənclik vətənpərvərlikdən uzaqdır, onları işğalda olan torpaqlar maraqlandırmır və sair. Amma sonda gördük ki, fikrimiz yanlış imiş. Vətən müharibəsi, ondan əvvəl Tovuz döyüşləri Azərbaycan gəncliyinin vətənpərvərlik əzmini ortaya qoydu, minlərlə gəncimiz silaha sarılıb düşmənə qarşı vuruşmaq, torpaqlarımızı azad etmək üçün ölkə rəhbərliyinə müraciət etdi. Azərbaycan gəncliyi tam gücü, potensialı ilə özünün nəyə qadir olduğunu sübut etdi. 44 Vətən müharibəsində Azərbaycan gəncliyi misilsiz qəhrəmanlıq göstərdi. Torpaqlarımızın azadlığı uğurunda canından keçən hər bir vətən oğlunun həyatı, qəhrəmanlığı bir örnəkdir, bir məktəbdir. Azərbaycan gəncləri o məktəbin yetirmələridir. Bir daha sübut olundu ki, biz vətənə, torpağa bağlı gəncliyə sahibik. Bu gün qəhrəman qazilərimiz xalqımızın fəxrdir və uşaqlarımız, gənclərimiz onlara bənzəmək istəyir.

Azərbaycanda artıq keçmiş məcburi köçkünlərin qayıdışı həyata keçirilir və sevindirici haldır ki, orta və yaşlı nəsillə yanaşı gənclər də o torpaqlara qayıtmaq istəyir, qayıdır. Gənclərin heç zaman görmədikləri torpaqlarımıza qayıdışı çox maraqlıdır və bu onunla bağlıdır ki, torpaq, Vətən sevgisi onlarda qəlbən, ruhən, mənən formalaşıb. Onlar bu yurdlarına daim xəyallarında təsəvvür ediblər və qayıtmağı arzulayıblar.

Bu gün də qayıdırlar, azad etdikləri ərazilərimizdə həyatı davam etdirməyə dönürlər. Gənclər azad etdikləri torpaqlarda xoşbəxt, firavan yaşamağa başlayırlar" - deyə müsahibimiz qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**